


# 20 Yanvar faciəsi “Salnamə”də

***Qanlı Yanvar yaddaşımızın əbədi ağrısıdır. Xalqımızın azadlığı və istiqlalı yolunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsini həmişə əziz tuturuq. Çoxumuz bu hadisələrin canlı sahidi olmuş, o gecənin ağrısını yaşamışıq. Həmin gecə Azərbaycan xalqı, həqiqətən, böyük qəhrəmanlıq göstərərək imperiyanın qaniçən ordusunun qarşısına əliyalın çıxdı. Doğrudur, biz şəhidlər verdik, ancaq imperiya xalqımızın azadlıq ruhunu öldürə bilmədi. Əksinə, biz qələbə çaldıq, müstəqil Azərbaycanı yaratdıq.***



Həmin gecənin hadisələrini canlı olaraq lentə köçürən kinooperatorların rolu danılmazdır. 1990-cı il 20 Yanvar gecəsi hadisələrini kinolentə köçürməklə tarixin vizual yaddaşına həkk edən “Salnamə” sənədli filmlər studiyası (indiki “Salnamə” kinostudiyası), sözün həqiqi mənasında, qəhrəmanlıq göstərib.

Onlar haqqında “Salnamə” studiyasının direktoru Tofiq Məmmədov danışır:

–1988-1990-cı illərdə çəkilmiş kadrlarda yumruq kimi birləşmiş bir millət görünür. O dövrdə dünya mediasında azərbaycanlılar öz varlığını sübut edən xalq kimi qiymətləndirilib. Məlumdur ki, 20 Yanvara qədər respublikamızın sərhəd bölgələrində, o cümlədən, ermənilər yaşayan yerlərdə gərginlik var idi. Gəncəətrafı kəndlərdə -- Kamo, Todan, Çaykənddə ermənilər sıx yaşayırdılar. Həmin ərəfədə “Salnamə” sənədli filmlər studiyasının operator və rejissorları xalqın etiraz dalğasını lentə alıblar. Həmin insanların arasında olublar.

1989-cu ilin dekabrın sonunda C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının direktoru Ramiz Fətəliyevin yanında məsləhətləşdikdən sonra “Salnamə” studiyasında qərargah yaratdıq. Qərargahın rəhbəri “Salnamə”nin o vaxtkı direktoru Xamis Muradov oldu. Qərargaha operatorlar və rejissorlar yığıldı. Həmin vaxt mən də “Salnamə”də rejissor işləyirdim. Qərargahın işçiləri rayonlara ezam edildilər. Bu yolla rayonlarda 20 Yanvar hadisələri ərəfəsində baş verənləri lentə aldıq. O vaxt çəkiliş üçün xeyli kinolent əldə etmişdik.

Həmin dövrdə “Salnamə” studiyasında qaynar bir həyat var idi. Studiyada növbətçi sistemi işləyirdi. Bizim operatorlar gecə Tbilisi prospektində olanları lentə aldılar. Doğrudur, gecə çəkilişləri çox çətin idi. Ancaq bəzi çəkdiklərimizdə güllələr yağan kadrlar aydın seçilir. Səhərə qədər bizim operatorlar indiki Prezident Aparatı binasının qarşısında, “Sahil” bağında və şəhərin digər nöqtələrində öz işlərini görürdülər. Yəni 20 Yanvar hadisələrini “Salnamə” studiyasında yaranan qərargah əvvəlcədən çəkməyə hazır idi. Çəkilən kadrların əksəriyyəti sonradan Xamis Muradovla birgə işlədiyimiz “Azadlığa gedən yollar” sənədli filmində istifadə olundu. Həmin filmdə Gəncəətrafı kəndlərdə tökülən qanlar və Naxçıvandakı hadisələr də öz əksini tapıb”.

Tofiq müəllim deyir ki, biz sovet qoşunlarının gecə şəhərə girməsindən tutmuş, törətdikləri hadisələrə qədər çəkdik. Güllələrin yağması, şəhərdə törədilmiş qırğınlar, şəhid olmuş və tankların əzdiyi insanları lentin yaddaşına köçürə bilmişik.

O dövrdə bu hadisələri yalnız “Salnamə” çəkirdi. Hərbçilər də bunu gözəl bilirdilər. Sözsüz ki, sovet zabitləri “Salnamə” studiyasını ələk-vələk etməmiş Bakını tərk etməyəcəkdilər. Sovet generalları studiyada həmin materialları axtarıblar. Rejissor T.Məmmədovun dediyinə görə, studiyanın rəhbəri Xamis Muradov bütün materialları studiyadan kənar yerdə gizlətmişdi. Çünki bizim DTK-dan studiyaya xəbər vermişdilər. O vaxt bizə DTK əməkdaşları və milislər səssiz-səmirsiz çox kömək etdilər.

Sumqayıt yolunda tank maşının üstündən keçmişdi. Biz orada durub gözləmirdik ki, tank gəlib maşının üstündən keçən kimi hadisəni çəkək. Belə məqamlarda bizə xəbər edirdilər. Çünki bilirdilər ki, biz bu hadisələri çəkirik. 15 dəqiqədən sonra operator Rafiq Quliyevlə biz orada olduq. Ölənlərdən birini götürmüşdülər, amma ikisi hələ maşında idi. Necə deyərlər, insanların qanı axa-axa biz bu hadisəni çəkdik. Bir də biz çəkən kimi hadisə yerindən uzaqlaşırdıq. O vaxtkı MK (Mərkəzi Komitə) binasının qarşısında mərhum operatorumuz Köçəri Məmmədovun üstünə tank sürmüşdülər. Bu hadisə kadrlarda da var.

“İnturist” mehmanxanasının üstündən operator Sərdar Vəliyev dənizdə gəmiləri çəkirdi. O, gəmiyə düşən mərmini lentə ala bilmişdi. Belə kadrları çəkmək çox çətindir. Bir sözlə, 20 Yanvar günlərini “Salnamə” studiyası lazımi səviyyədə ətraflı şəkildə lentə ala bildi.

Bildiyimiz kimi, yanvarın 22-də şəhidlərin dəfn mərasimi oldu. Çəkilən kadrlardan gördüyümüz kimi, şəhərdə adam çox olub. Bu möhtəşəm dəfn mərasimini “Salnamə”nin Köçəri Məmmədov, Sərdar Vəliyev, Rafiq Quliyev, Rafiq Salamzadə, Nemət Rzayev, Kənan Məmmədov, Zaur Məhərrəmov, Nizami Abbas və digər operatorları lentə köçürüblər.

İndi həmin kadrlara baxdıqda bu operatorların SSRİ DTK-sının və ordusunun təzyiqi altında o vaxt böyük iş gördüklərini danmaq olmaz. “Salnamə”nin operatorlarının 20 Yanvar hadisələrini kinolentə almaları bugünkü studiyalara bir örnəkdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***